# Azərbaycan Dövlət Reklam Agentliyi İdarə Heyətinin yeni sədri kollektivə təqdim edilib

Azərbaycan Respublikasının Dövlət Reklam Agentliyinin İdarə Heyətinin yeni sədri Fərhad Adıgözəlov aprelin 17-də kollektivə təqdim olunub.

Agentlikdən AZƏRTAC-a bildiriblər ki, F.Adıgözəlovu kollektivə Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov təqdim edib.

Xatırladaq ki, aprelin 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı Sərəncamla Fərhad Adıgözəlov Azərbaycan Respublikasının Dövlət Reklam Agentliyinin İdarə Heyətinin sədri vəzifəsinə təyin olunub.

Azərbaycan.- 2024.- 18 aprel, № 77.- S.2.